# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT FONDU

# LOQODAN İSTİFADƏ QAYDALARI ÜZRƏ
# TƏLİMAT

Bu sənəd Azərbaycan Respublikası Dövlət Neft Fondunun loqosunun praktiki istifadəsi üzrə təlimatdır və Fondun bütün əməkdaşları tərəfindən mütləq şəkildə nəzərdən keçirilməlidir.

Bu təlimat Fondun yüksək imicini ölkə ictimaiyyəti, Fondun xaricdəki iş tərəfdaşları, Azərbaycan Respublikasının digər dövlət strukturları və xarici dövlətlərdə təmsil etmək üçün nəzərdə tutulub.

Bu təlimat Azərbaycan Respublikası Dövlət Neft Fondunun mülkiyyətidir.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun loqosu və bu təlimat Azərbaycan Respublikası Dövlət Neft Fondunun sifarişilə və tələblərinə əsasən dizayner Zaur İsmayılov tərəfindən hazırlanıb.

# LOQO

# LOQO

Loqonun ümumi görünüşündə Fondun fəaliyyətinin tərkib hissəsi olan Azərbaycanın sərvətlərinin gələcək nəsillər üçün saxlanmasını özündə simvolizə edən əlləri arasında çox əziz və qiymətli nəyisə himayə edən insan fiquru təsvir edilmişdir.

# LOQO

Fiqurun əlləri loqoya bənzərsiz milli kolorit verən iki buta şəklində təsvir edilmişdir.

Fiqurun əlləri arasındakı sahə ölkənin ümumilikdə gələcəyinə, həmçinin Fondun ölkə və xalqın firavan gələcəyinin qurulması sahəsində fəaliyyətinə yönəlmiş baxışın göz şəklində rəmzidir.



Eyni zamanda bu baxış təsvir edilmiş fiqurun öz daxilinə yönəlmişdir. Əllərin arasındakı kürə insanın ürəyini təsvir edir ki, bu da Fondun şəffaf fəaliyyətinin simvoludur.

# LOQONUN RƏNGİ

# LOQONUN RƏNGİ

Loqoda aşağıdakı rəng çalarlarından istifadə oluna bilər:

1. Sarı

**Pantone Uncoated**
pantone 119 U

**Pantone Coated**
pantone 119 C

**CMYK**
C0 M12 Y100 K49

**RGB**
R151 G129 B0

**Pantone 874**

2. Qara

**Pantone Uncoated**
pantone Black U

**Pantone Coated**
pantone Black C

**CMYK**
C0 M0 Y0 K100

**RGB**
R0 G0 B0

# LOQONUN RƏNGİ

---

## 3. Sarı fonda ağ

**Pantone Uncoated** pantone 119 U

**Pantone Coated** pantone 119 C

**CMYK**
C0 M12 Y100 K49

**RGB**
R151 G129 B0

## 4. Qara fonda ağ

**Pantone Uncoated** pantone Black U

**Pantone Coated** pantone Black C

**CMYK**
C0 M0 Y0 K100

**RGB**
R0 G0 B0

# ŞRİFT

# ŞRİFT

---

Hər hansı rəsmi və ya daxili sənədlərin hazırlanması zamanı istifadə olunan Fondun əsas şriftləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə dövlət strukturlarında istifadə edilməsi üçün nəzərdə tutulan şriftlərdir.

Korporativ hədiyyələr hazırlanarkən və bəzi istisna hallarda Garamond Premier Pro şriftindən istifadə edilə bilər.

# PRAKTİKİ TƏTBİQ

Fondun loqosunun istifadəsi bir neçə sadə, lakin çox vacib qaydalara söykənir:

1. Loqonun ən kiçik ölçüsü eni üzrə 1 santimetrdir. Bu zaman əmtəə nişanının hündürlüyü 0,85 santimetr təşkil edir. Loqonun təqdim olunması üçün daha kiçik ölçülərdən istifadə formanın qavranılmasının təmin edilməsi baxımından məsləhət görülmür.




2. Loqonun ölçüsünün böyüdülməsi və ya kiçildilməsi yalnız əsas nisbəti saxlamaqla tətbiq edilməlidir. Enə nisbətən hündürlüyün və ya əksinə hündürlüyə nisbətən enin dəyişdirilməsi qəti qadağandır.



3. Loqonu əhatə edən boşluq üçün yol verilən minimum sahə əmtəə nişanının ibarət olduğu dörd fiqurdan birinin kiçik dairəsinin diametrindən az olmamalıdır.







4. Azərbaycan Respublikası Dövlət Neft Fondu bilavasitə ölkə Prezidentinə tabe olan dövlət strukturudur. Fondun blankında və onun əməkdaşlarının biznes kartlarında Azərbaycan Respublikasının dövlət gerbindən istifadə korporativ üslubun ayrılmaz hissəsidir.



5. Dövlət gerbindən istifadə olunmadıqda, loqo həm Fondun tam adı ilə birgə, həm də onsuz verilə bilər.

**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT FONDU**









+99412 4987753 | office@oilfund.az | Neftçilər pr. 24, Bakı, Azərbaycan,AZ1000